Aybəniz Qafarlı

## Dərman Bizim Dostumuzdu

Yemək-içmək bir tərəfə,
Dərman bizim dostumuzdu.
Bu nə ah-uf, nə fəryaddı
Dərman bizim dostumuzdu.

İçək səhər duran kimi,
Ağrı kəsər vuran kimi,
Başucumda Quran kimi,
Dərman bizim dostumuzdu.

Reseptə bax qalaq-qalaq,
Almalıyıq qucaq-qucaq,
Yanmasa da bu od-ocaq,
Dərman bizim dostumuzdu.

Zəhər dadı şirindisə,
Çarən onun birindəsə,
Vallah ölən yerindisə,
Dərman bizim dostumuzdu.

Pul olmasa alammırıq,
Onsuz bir gün qalammırıq,
Adam kimi dolanmırıq,
Dərman bizim dostumuzdu.

Ömürlükdü yoldaş bizə,
Onsuz dərd də çıxıb dizə,
Yenidən nur verər gözə,
Dərman bizim dostumuzdu.